*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 8 mart 2017-ci il № 18 (2135) Qiyməti 25 qəpik


## 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibəti ilə Azərbaycan qadınlarına təbrik



Hörmətli xanımlar!

Sizi Beynəlxalq Qadınlar Günü münasibəti ilə səmimi qəlbdən təbrik edir, hamınıza cansağlığı, səadət və gələcək işlərinizdə uğurlar arzulayıram.

Azərbaycan qadınının tarixən cəmiyyətdə tutduğu mövqeyin, həyatımızın bütün sahələrində mühüm nailiyyətlərə yol açan və inkişafımızı təmin edən başlıca amil kimi müstəsna əhəmiyyəti vardır. Ötən əsrin ilk onilliklərində, dünyanın bir çox qabaqcıl ölkələrinin qadınlarından xeyli əvvəl seçib-seçilmək hüququ qazanan qadınlarımız zəngin ictimai-siyasi fəaliyyətləri sayəsində çoxsaylı müvəffəqiyyətlər əldə etmişlər. Bu ilin respublikamızda "İslam Həmrəyliyi İli" elan edilməsi ilə əlaqədar xüsusi vurğulamaq lazımdır ki, mədəniyyətin, incəsənətin, elmin və təhsilin müxtəlif istiqamətləri üzrə müsəlman Şərqində qadınlar arasında ilk addımları məhz onlar atmışlar. Gənc xanımlarımızın nəsillərin mənəvi varisliyi prinsipini bu gün də qorumaqla özlərinin maarifpərvər sələflərinin ləyaqətli davamçılarına çevrilmələri sevindirici haldır.

Çoxəsrlik mədəni irsimizin təşəkkülündə misilsiz xidmətlərə malik Azərbaycan qadını dünyaya bəşər mədəniyyəti xəzinəsinin incilərini yaradan görkəmli ədiblər, tarixi şəxsiyyətlər, tanınmış elm və sənət adamları bəxş etmişdir. Milli varlığımızın ifadəsi olaraq əxlaqi-mənəvi sərvətlərimizin və mədəni-tarixi dəyərlərimizin, keçmişimizin ən mürəkkəb dövrlərində belə, qorunub yaşadılması bilavasitə onun adıyla bağlıdır.

Ana məfhumu minillərdən bəri xalqımızın təfəkküründə doğma yurdu, Vətən torpağını və dilimizi təcəssüm etdirmişdir. Analarımız azərbaycançılıq məfkurəsinə sadiq layiqli övladların tərbiyəsi üçün üzərlərinə düşən vəzifənin öhdəsindən bu gün də şərəflə gəlirlər. İndi ürəyi ölkəmizə hədsiz sevgiylə dolu, Vətəni ana qədər müqəddəs bilərək torpaqlarımızın hər qarışını qorumağa hazır olan, müstəqilliyimizlə yaşıd bir nəsil yetişmişdir. Bu, Azərbaycan qadınının müasir dövlətçiliyimizə ən böyük töhfəsidir.

İnanıram ki, yüksək mənəviyyatınız və qurub-yaratmaq əzminizlə siz cəmiyyətimizin həyatına bundan sonra da yeni çalarlar gətirərək daim yeniləşən ölkəmizin müstəqillik salnaməsinə parlaq səhifələr yazacaqsınız.

Dərin hörmət və ehtiramla,

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 mart 2017-ci il.

## Azərbaycan Respublikası Müdafiə nazirinin 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibəti ilə təbriki

Əziz xanımlar!

Sizi 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibəti ilə təbrik edir və ən xoş arzularımı bildirirəm.

Azərbaycan qadınları tarix boyu kişilərlə birlikdə ölkənin ictimai-siyasi, mədəni həyatında fəal iştirak etmiş, Vətənin müdafiəsində və dövlətin idarə olunmasında fədakar xidmətlər göstərmişlər.

Dövlət müstəqilliyimizin bərpasından sonra Azərbaycan qadını milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilmiş, ölkəmizin sosial-iqtisadi və mədəni potensialının artırılması üçün dəyərli töhfələr vermişdir. Azərbaycan qadını doğma torpaqlarımızın bir qisminin işğal altında olduğu bir dövrdə gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsi və onların xalqa, cəmiyyətə layiqli övlad kimi yetişdirilməsi üçün üzərinə düşən ağır yükü şərəflə daşıyır.

Torpaqlarımızın müdafiəsi zamanı şəhid olmuş qadınlarımızın əziz xatirəsini hörmət və ehtiramla yad edir, bütün şəhid anaları və xanımlarına, döyüşlərdə sağlamlığını itirmiş hərbi qulluqçuların ömür-gün yoldaşlarına və Vətənimiz üçün layiqli övladlar böyüdən əsgər analarına bayram təbriklərimi çatdırıram.

Hazırda Azərbaycan Ordusunun bütün qoşun növlərində, xüsusi təyinatlı hərbi təhsil müəssisələrində, hərbi tibb ocaqlarında və digər sahələrdə yüzlərlə qadın xidmət edir və Vətən qarşısında vəzifə borclarını şərəf və ləyaqətlə yerinə yetirirlər.

İnanıram ki, ordumuzda xidmət edən qadınlarımız bundan sonra da ölkə rəhbərliyinin etimadını doğruldacaq, göstərilən diqqət və qayğıya cavab olaraq Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edəcəklər.

Bayramınızı bir daha təbrik edirəm!

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının Müdafiə naziri**



Hava məkanımızın etibarlı müdafiəçiləri

3-cü səhifədə



Bayramınız mübarək, əziz qadınlarımız!

4-5-ci səhifədə



"Həmişə ordumuzun yanında olacağıq"

6-cı səhifədə



Kursantlar yüksək hazırlıq nümayiş etdirdilər

7-ci səhifədə

AZƏRBAYCAN ORDUSU

# Qadınlar cəmiyyətimizin fəal qurucularıdır

## 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibəti ilə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində bayram tədbiri

*Dahilərdən birinin dediyi kimi, anadan, qadından söhbət açılanda ən səmimi, müqəddəs duyğularımızı ifadə etməliyik. Qadınlarımız bundan da artıq sevgiyə, diqqət və qayğıya layiqdir. Xoşdur ki, ilin bu gözəl fəslində ən gözəl, arzuolunan bayramlardan birini - 8 Mart Qadınlar Gününü qeyd edirik. Bu münasibətlə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində bayram tədbiri keçirilib. Tədbirdə ordumuzun hərbi hissə və müəssisələrində xidmət edən və mülki qulluqçu kimi çalışan qadınlar iştirak ediblər.*



Ümummilli liderimiz Heydər Əliyev ölkəmizdə siyasi hakimiyyətdə olduğu bütün dövrlərdə qadınlara böyük diqqət yetirib, onlara cəmiyyətin aparıcı qüvvəsi kimi inanıb və etimad göstərib.

Qadınlara olan diqqət və qayğı müasir dövrümüzdə də dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Ulu Öndərin siyasi məktəbinin yetirməsi olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qadınlara həyatımızın bütün sahələrində geniş yer verilir. Müasir dövrdə qadınlarımız ölkənin ictimai-siyasi həyatında geniş təmsil olunurlar. Hazırda Azərbaycanda elə bir sahə yoxdur ki, orada qadınların rolu, əməyi hiss edilməsin.

Bu gün Silahlı Qüvvələrimizin ayrı-ayrı hərbi hissələrində zabit və mülki işçi kimi qadınlarımız çalışır, ordumuzun daha da qüdrətlənməsi üçün öz töhfələrini əsirgəmirlər. Müxtəlif hərbi qurumlarda, xüsusi təyinatlı təhsil müəssisələrində, habelə əsgərlərin məişəti ilə bağlı sahələrdə çalışan qadınlar öz fədakarlıqları ilə nümunədirlər.



Tədbiri açıq elan edən Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin baş zabiti polkovnik-leytenant Emin Səfərov hər zaman dövlətçiliyimizin möhkəmlənməsində fəal mövqedə dayanan, yorulmaz mübarizə əzmi göstərən Silahlı Qüvvələrin bütün qadınlarını 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibəti ilə Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik edib, onlara xoşbəxtlik, səadət, firavan həyat, uzun ömür və cansağlığı arzulayıb.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibəti ilə təbrikləri oxunub.

Təlim və Tədris Mərkəzi rəisinin şəxsi heyətlə iş üzrə müavini polkovnik-leytenant Elvin Əzizov çıxışında bildirib ki, bəşəriyyətin ən istedadlı, zəngin mədəniyyətə malik xalqlarından olan Azərbaycan xalqı şanlı mübarizə yolu keçərək, bu gün dünyada misilsiz nailiyyətləri ilə tanınır, gündən-günə nüfuzu artır. "Nailiyyətlərin əldə edilməsində Azərbaycanın mərd və fədakar qadınlarının böyük rolu var. Ulu öndər Heydər Əliyevin sözləri ilə desək, bu bayram, doğrudan da, bizim bütün bayramlar içərisində ən gözəl bayramdır. "İnsan cəmiyyətində qadının rolu, əhəmiyyəti əvəzedilməzdir. Qısaca onu demək olar ki, qadınsız həyat yoxdur. Qadınlar cəmiyyətdə, həyatda göstərdikləri bütün başqa xidmətlərlə yanaşı, ona görə ən yüksək qiymətə layiqdirlər ki, onlar anadırlar...".



Natiq onu da qeyd etdi ki, Ulu Öndərin müdrik ənənələri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirilir və bu gün qadın siyasəti dövlət siyasətinin tərkib hissəsidir. Azərbaycan qadınlarının lideri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva istər ölkəmizdə, istərsə də Vətən hüdudlarından kənarda öz bacarığı və əvəzsiz keyfiyyətləri ilə Azərbaycan xanımlarını ən yüksək səviyyədə təmsil edir. Mehriban xanımın Azərbaycana verdiyi töhfələr qadınlarımızın zəkasının, güc və qüdrətinin bariz nümunəsidir.

Tədbir Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin təqdim etdiyi rəngarəng konsert proqramı ilə başa çatıb.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Hərbi Orkestr Xidmətinin estrada heyətinin konserti maraqla qarşılanıb

*Martın 7-də Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında Müdafiə Nazirliyinin Hərbi Orkestr Xidmətinin estrada heyəti 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə konsert proqramı ilə çıxış edib.*

AZƏRTAC xəbər verir ki, estrada heyəti əməkdar incəsənət xadimi, mayor Rüfət Axundzadənin bədii rəhbərliyi ilə Azərbaycan və dünya bəstəkarlarının əsərlərini səsləndirib. Konsertdə "Azərbaycanım", "Sizə salam gətirmişəm", "Mehribanım", "Azərbaycan", "Pəncərəmə", "Demirəm", "İncə belli", "Can Qarabağ", "Anamız Azərbaycan", həmçinin "Gypsy Kings" repertuarından "Bamboleo", "Shakatak" repertuarından "Invitations" və digər əsərlər təqdim olunub.



Konsert proqramı maraqla qarşılanıb.

Sonra Müdafiə Nazirliyinin Hərbi Orkestr Xidmətinin rəisi, professor, general-mayor Yusif Axundzadə 8 Mart - Beynəlxalq Qadınlar Gününün əhəmiyyətindən söz açaraq bildirib ki, hər bir qadının ailədə və cəmiyyətdə öz yeri var və onlara qayğı göstərmək hər birimizin borcudur. Qadınlar həm ailənin, həm də cəmiyyətin bərabərhüquqlu üzvləridir.

Sonda bir qrup qadına hədiyyələr təqdim olunub.

# "Azərbaycan Ordusu düşmənin bütün təxribatlarının və həmlələrinin qarşısını almağa qadirdir"

Modernləşən və güclənən Azərbaycan Ordusu düşmənin bütün təxribatlarının və həmlələrinin qarşısını almağa, istənilən məqamda ona layiqli cavab verməyə qadirdir.

Bu fikri Türkiyə Silahlı Qüvvələrinin Hərbi Dəniz Donanmasının cənub birləşmələrinin komandanı, kontr-admiral Hasan Şükrü Korlu Azərbaycanın İstanbuldakı baş konsulu Məsim Hacıyevlə görüşündə bildirib.

Azərbaycan ilə Türkiyə arasındakı dostluq və qardaşlıq münasibətlərindən, o cümlədən hərbi sahədəki əməkdaşlığın inkişafından bəhs edən H.Ş.Korlu ölkəmizin hərtərəfli tərəqqisini sevinclə qarşıladığını vurğulayıb. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin təcavüzkar tərəfin qeyri-konstruktiv mövqeyi ucbatından həll olunmadığını vurğulayıb.

Baş konsul M.Hacıyev eyni kökə, dilə, dinə və mədəniyyətə malik olan Azərbaycan və Türkiyə xalqlarının qardaşlıq münasibətlərinin digər ölkələr üçün nümunə olduğunu söyləyib. Ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını xatırladan diplomat bildirib ki, bu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına xüsusi diqqət göstərir. Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasının real nəticəsi olaraq reallaşan beynəlxalq səviyyəli iqtisadi layihələr Azərbaycan və Türkiyə də daxil olmaqla, böyük coğrafiyada iqtisadi yüksəlişi təmin edir.

Görüşdə Azərbaycan və Türkiyə arasında bütün istiqamətlərdə, o cümlədən müdafiə sahəsində əməkdaşlığın inkişafı məsələlərinə dair fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Hava məkanımızın etibarlı müdafiəçiləri



Əlahiddə Ümumqoşun Ordusunun Hava Hücumundan Müdafiə hissə və bölmələrinin şəxsi heyətlərinin peşəkarlığının artırılması istiqamətində əhəmiyyətli tədbirlər görülür. Növbəti tədbir kimi 2017-ci ilin döyüş hazırlığı planına əsasən, hava hücumundan müdafiə təyinatlı hərbi hissə və bölmələri arasında "Ən yaxşı heyət" adı uğrunda yarış keçirilib. Yarışlara S-125, OSA, İqla-S zenit raket komplekslərinin və 23 mm-lik zenit qurğularının heyətləri cəlb olunub. Yarış zamanı döyüş texnikalarının səfər və döyüş vəziyyətinə gətirilməsi, döyüş tapşırıqlarının yerinə yetirilməsi üzrə şəxsi heyətin bilikləri, vərdişləri yoxlanılıb. Gərgin və



əzmkar mübarizə şəraitində keçən yarışın sonunda ən yaxşı heyətlər müəyyənləşdirilərək Əlahiddə Ümumqoşun Ordusu Komandanlığı tərəfindən mükafatlandırılıb.

Müasir silah və texnikalarımızın hesabına Naxçıvan Muxtar Respublikasının coğrafi relyefinə uyğun ən çətin dağlıq şəraitdə düşmənin hava hücumu vaxtında aşkar olunaraq məhv ediləcəkdir.

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi,**
**fotolar**
**əsgər**
**Rasim İSMAYILLININDIR**

*Nümunəvi xidmət*

# Düşmənin hər addımı izlənilir

*Gün günortaya əyilir. Yolumuz ön xətdə xidmət edən əsgərlərin yanınadır. Qarşımızda görünən dağlar qarla örtülüb. Gedəcəyimiz mövqelər də bu dağların ətəyində yerləşir. Zabit Valeh Rəcəbovla üz tutduğumuz səngərlər bizə çoxdan tanışdır. Həmin vaxtdan on beş il keçir. Ötüb-keçən illərin xatirələri, bu gün maraqla xatırladığımız çətin anlar yaddaşımızda yenidən təzələnir.*

Zabit Valeh Rəcəbov deyir ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov başda olmaqla, Nazirliyin rəhbər heyəti tez-tez cəbhə bölgəsində olur və ön xətdə xidmət edən əsgərlərlə görüşür. Ordu rəhbərliyinin səngərlərdə olması hər bir əsgərdə böyük ruh yüksəkliyi yaradır. Döyüş növbəsindən sonra əsgərlərin istirahət etməsi üçün yaradılan şərait bir daha onu göstərir ki, ən ucqar post belə ordu komandanlığının diqqətindədir.

Mənzil başına yaxınlaşdıqca ətrafa göz gəzdirirəm. Səngərlər həmin səngərlərdir. Səngərin o üzü də, bu üzü də Vətəndir. Məlum səbəbdən o üzə gedə bilmirik. Sinəsində səngər dağı gəzdirən Vətən. İxtiyarsız bir sual məni düşündürür: görəsən, nə vaxta qədər bu dağı özündə gəzdirəcək? Düşmənin tapdağı altında inləyən yurd yerlərimizin tezliklə azad edilməsi üçün ordumuzun şəxsi heyəti Ali Baş Komandanın "İrəli" əmrini intizarla gözləyir. Azərbaycan əsgərinin qəhrəmanlığı ilə işğal altındakı torpaqlarımız azad ediləcək, ölkəmizin beynəlxalq hüquqla tanınan ərazi bütövlüyü bərpa ediləcək. Ötən il aprelin ilk günlərində də ordumuz düşmən hücumlarının qarşısını alaraq əks-həmlə ilə qısa zamanda tarixi qələbələrə imza atdı. Tarix təkrar olunacaq, bu dəfə işğal edilmiş digər ərazilərimiz də tam azad olunacaq.

Döyüş postunda kapitan Elman Həsənov gün ərzindəki vəziyyət barədə məlumat verdi. Düşmənlə məsafənin çox yaxın olduğunu bildirən zabitə görə yağılar tez-tez mövqelərimizə atəş açırlar, amma cavab atəşimizlə geri çəkilməyə məcbur olurlar. Dərin qazılmış səngər bizi başqa postlara aparır. Müdafiədə döyüşün aparılması üçün yetərincə



mühəndis qurğularının tələblərinə cavab verən atəş sektorları var. Üstüörtülü atəş mövqeyində mazğaldan müşahidə aparan əsgər Valeh Həsənov dedi ki, düşmənlə məsafə çox yaxın olduğu üçün təhlükəsiz müşahidə aparmaq məqsədilə vacib tədbirlər görülür. Fasiləsiz olaraq düşmənin bütün hərəkətlərini izləmək mümkündür.

Burada görüşdüyüm leytenant Ayaz Cəfərli iki il öncə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. Vətənin müdafiəsində mətinlə dayandığını, erməni tapdağı altında olan ərazilərimizi azad etmək üçün tabeliyində olan əsgərlərə hərbi bilikləri aşılayaraq onların döyüş vərdişlərini təkmilləşdirdiyini bildirdi. Taqımın dayaq məntəqəsində relyefin mürəkkəbliyi şəxsi heyətin məsuliyyətini daha da artırır. Leytenant Ayaz Cəfərli deyir:

- Erkən yaşlarımdan zabit olmaq arzusu ilə yaşamışam. Zabit olmaq şərəfli və qürurvericidir. Kursant olduğum illərdə məqsədim, amalım hərbi bilikləri yetərincə mənimsəmək idi. İndi də ön xətdə Vətənə layiqincə xidmət edirəm. Əsgərlərə müşahidə aparmağın sirlərini izah edirəm. Döyüşçülərimizin sayıqlığı nəticəsində biz erməni kəşfiyyat diversiya qruplarını vaxtında aşkar edib onların niyyətlərini alt-üst edirik.

Döyüş mövqelərində görüşdüyüm əsgərlərin də hər birinin arzusu tezliklə erməni tapdağı altında olan yurd yerlərimizi azad etməkdir...

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Martın 20-də Silahlı Qüvvələrdə "Açıq qapı" günü keçiriləcək

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, martın 20-də saat 11.00-da Novruz bayramı münasibətilə bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü təşkil olunacaq.

Həmin gün ziyarətçilər, ictimaiyyət, kütləvi informasiya vasitələrinin nümayəndələri hərbi hissələrdə yaradılan yaşayış və məişət şəraiti ilə yaxından tanış olmaq, xidməti, inzibati binalara, eləcə də əsgər yataqxanaları və yeməkxanalarına baş çəkmək imkanı əldə edəcəklər.

Müxtəlif hərbi hissələrdə Silahlı Qüvvələrin bütün rəhbər heyətinin iştirakı ilə keçiriləcək "Açıq qapı" günündə valideynlərlə görüşlər təşkil olunacaq, onları maraqlandıran məsələlərin müzakirəsi aparılacaq, konsert proqramları və digər mədəni-kütləvi tədbirlər keçiriləcəkdir.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***6 mart 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 116 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Barekamavan kəndlərində və adsız yüksəkliklərdə, İcevan rayonunun Vazaşen kəndində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı, Quşçu Ayrım kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Ağbulaq kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Nəmirli, Mərzili, Yusifcanlı, Füzuli rayonunun Qorqan, Horadiz, Aşağı Veysəlli, Qaraxanbəyli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***7 mart 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 119 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Barekamavan, İcevan rayonunun Vazaşen, Berkaber kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı, Bala Cəfərli, Qızılhacılı kəndlərində, Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Koxanəbi kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Qaraqaşlı, Sarıcalı, Cəvahirli, Mərzili, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qorqan, Aşağı Seyidəhmədli, Aşağı Veysəlli, Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Bayramınız mübarək, əziz qadınlarımız!

*8 Mart -Beynəlxalq Qadınlar Günü... Həyatımızda öz yeri, əhəmiyyəti olan günlərdən biri. Analarımızı, bacılarımızı - bir sözlə, xanımlarımızı ən xoş arzularla təbrik etdiyimiz bir gün. Cəmiyyətimizdə qadınların öz yeri var. Azərbaycan qadını tarix boyu ailəyə bağlılığı, xoş rəftarı, səmimiyyəti ilə tanınıb. Bizim qadınlar ən çətin, dar gündə ömür-gün yoldaşlarına, sözün həqiqi mənasında, ən yaxın dost və sirdaş olublar. Bu gün də cəmiyyətimizin bütün sahələrində qadınlar öz fəallığı ilə seçilir, vəzifələrinin öhdəsindən bacarıqla gəlirlər.*





Hər bir döyüşçünün yaddaşında ağ xalatlı xilaskar kimi daim xoş hisslərlə xatırlanan tibb bacıları müharibə illərində rahat iş yerlərini barıt qoxulu səngərlə əvəz etdilər. Cəbhə xəttində yerləşən səhra hospitalına gəlişimin məqsədi də 8 Mart - Beynəlxalq Qadınlar Günü ərəfəsində belə cəsur qadınlarımızı oxucularımıza daha yaxından tanıtmaq idi...

Ömrünün tən yarısı hərbi mühitdə keçib, müharibə veteranıdır. Bu gün də çalışdığı kollektivdə hamı ona xüsusi ehtiram, sayğı göstərir və onun mənalı ömür yolundan nümunə götürür. Beləliklə, ilk həmsöhbətim döyüş yolu keçmiş təcrübəli tibb bacısı Xalidə Fərzəliyevadır.

- 1992-ci ildən hərbi tibb sahəsində çalışıram, Milli Qəhrəman, şəhid alay komandiri Şirin Mirzəyevin dəstəsində tibb bacısı olmuşam, - deyən Xalidə xanım şərəfli ömür yolundan xatirələrini bölüşür. - Doğma qəzetimizin rəhbərliyinə minnətdarlığımı bildirmək istərdim ki, bayramımız ərəfəsində bizi yada salıblar. Bilirsiniz, müharibə başlayanda ordumuz yeni yaranırdı, cəbhə



bölgələrində yaralılara tibbi xidmət göstərmək üçün qadınlara böyük ehtiyac vardı. Qardaşım Səməd Fərzəliyev ilk könüllü döyüşçülərdən olub. Bir dəfə döyüşdən çıxıb evə gələndə onun bir söhbətini dinlədim: "Bacı, müharibədə təsadüfi itkilərimiz də olur, vaxtında tibbi yardım göstərilmədiyi üçün neçə silahdaşım canını tapşırıb". Bu sözləri eşidəndən sonra orduya yazıldım. Qardaşım Ağdərə döyüşlərindən birində şəhid olduqdan sonra isə taleyimi birdəfəlik orduya bağladım. Hər döyüşçünün sarğısını dəyişəndə xəyalımda Səməd canlanır...

Əməliyyat tibb bacısı kimi kollektivdə dərin hörmət sahibi olan Tünzalə Səfərova da ilk müharibə illərindən orudadır. Ömür yolu gənc nəslə, bu gün həkimlik peşəsini seçən hər bir qadına örnək olan Tünzalə xanımın taleyinə Şuşadan, ata ocağından didərgin düşmək yazılıb. Elə bu nisgil onu orduya gətirib. Yarasına məlhəm qoyduğu hər döyüşçünün simasında doğma Şuşaya qayıdacağı günün arzusunu yaşayır. "Ordumuz müharibə, döyüş meydanında yaranırdı. Hərbi tibb işçilərinə olan ehtiyacı duyandan sonra mən də könüllülər sırasına qoşuldum. Müasir ordu quruculuğundan fərqli olaraq o illərdə çətinliklər çox idi. Tibbi avadanlıqlar, dava-dərman çatışmadığına görə nə qədər təsadüfi itkimiz olurdu. Amma indi dünya tibb elminin son nailiyyətləri ölkəmizin hərbi səhiyyəsində də özünü göstərir. Aprel döyüşlərində qanaxma faktına görə bir nəfər belə itkimiz olmadı. Bir vətəndaş olaraq ordumuza töhfə verdiyim üçün özümü xoşbəxt sanıram. Sağlam həyata qaytarılan hər bir yaralının sifətində təbəssüm hiss edəndə uşaq kimi sevinirəm. Elə bilirəm ki, həyatımın sirri də bundadır".

- Sağ olun ki, bayram arzularımızı qələmə almaq üçün gəlmisiz, - deyə Tofiqə Əsədova özünü təqdim edir. - İntensiv terapiya bölməsində çalışıram. Bu vaxta kimi saysız-hesabsız əsgərə, zabitə tibbi xidmət göstərmişəm. Vətən üçün yaşanılan ömür şərəflidir, məhz əsgərlərimiz bələ ömür sahibidir. Onların müalicəsi ilə məşğul olanda bəzən gecəmi gündüzə qatmışam. Aprel döyüşlərində hamımız bir nəfər kimi hospitalda əsl döyüş şəraiti yaşadıq. Heç kim yoruldum, usandım demədi, Vətənimizin ərazi bütövlüyü naminə zəfərə imza atanlara xidmət göstərənlərdən biri olduğuma görə xoşbəxtəm. İnşallah, dövlət başçımızın qeyd etdiyi kimi, şanlı tarixi qələbəmiz olan aprel zəfəri yenə də təkrarlanacaq və Cocuq Mərcanlıda olduğu kimi, insanlar ata-baba ocaqlarına dönəcəklər. Hər bir Azərbaycan qadınına tezliklə böyük Qələbəmizə şahid olmağı arzu edirəm. 8 Mart günündə bundan böyük arzum, istəyim ola bilməz.

Tünzalə Həsənova isə Bərdə rayonunda Tibb Texnikumunu bitirdikdən sonra ordu sıralarına gəlib. Tibb işçisi olmaq, insanlara şəfa bəxş etmək uşaqlıq arzusu olub. Bu gün isə əsgərlərimizin sağlamlığı keşiyində dayanmaqdan ikiqat şərəf duyur.

Kiçik çavuş rütbəsində olan Tünzalə xanıma görə, hərbi xidmətdə keçən ömür daha şərəflidir. "Adam öz peşəsin-



dən, doğma Vətəninə xidmətdən qürur duyursa, həyatda öz yerini tapır. Mən də taleyimi orduya bağladığım üçün qürurluyam. Bəzilərinə elə gəlir ki, qadınların hərbçi olması çətindir. Amma adam arzuladığı bir sahədə çalışırsa, uğur qazanmağı da bacarır. Rəfiqələrimin fikri, arzuları ilə şərikəm. Kaş tezliklə Qələbəmizi qeyd edək, Bahar bayramında Şuşanın ən uca zirvəsində, Azərbaycanımızın hər yerində bayram tonqalları qalansın."

Lənkəran rayonundan olan Nüşabə xanım isə hərbçi ailəsindəndir. Həyat yoldaşı Səlim Səlimov tibb xidməti mayorudur və hazırda cəbhə xəttində xidmətini davam etdirir. "Sevib-seçdiyim ömür-gün yoldaşımın hərbçi olması məni də orduya gətirdi. 2012-ci ildən bu hospitalda çalışıram. Tibb bacısı olaraq xidmət etdiyim insanların ən müqəddəs peşənin - hərbçi peşəsinin sahibi olduqlarını düşünəndə sevinirəm ki, Vətənimə, xalqıma töhfə verirəm. Həyat yoldaşımın günlərlə evə gəlmədiyi vaxtlarda da mənə çətin olmayıb, çünki o, Vətənimin əsgəridir. Bu bayram günündə hər bir azərbaycanlı qadına ən xoş arzularımı çatdırıram."

* * *

Bu gün ordumuzda camaşırxana xidməti də öz fəaliyyətini günün tələbləri səviyyəsində həyata keçirir. Burada yerləşdirilən ən müasir avadanlıqlar tapşırıqların tez və keyfiyyətlə yerinə yetirilməsinə zəmin yaradır. Ən başlıca amil isə, şübhəsiz ki, qadınların işə olan tələbkarlığıdır. Gəlin, burada çalışan qadınlarımızı tanıyaq.

Gözəl Məhərrəmova quruducu maşının operatorudur.

- 8 Mart - Beynəlxalq Qadınlar Günü ərəfəsində bizi yad etməyiniz məni də ürəkdən sevindirdi, - deyə Gözəl xanım söhbətə qoşuldu. - Adətən deyirlər ki, qadın zərif-



lik simvoludur, çətin sahələrdə çalışmaq qadına yaraşmır. Amma belə deyil, bu gün ordu quruculuğunda məişətlə bağlı işləri biz görürük. Əslində, bu cür olmalıdır, belə tapşırıqların öhdəsindən yalnız qadınlar gələ bilər. Ağdam sakiniyəm, oğlum Eldar Məhərrəmov da əsgəri xidmətini başa vurandan sonra müqavilə əsasında hərbi qulluğa qəbul olunub və torpaqlarımızın keşiyində dayanır. Əsgərlərimizin paltarlarını və yataq dəstlərini yumadan sonra qurutmaq işi mənim öhdəmə düşür. Bu tapşırığın öhdəsindən gələrək əsgərlərimizin xidmətində dayandığım üçün qürurluyam. Bir döyüşçü anası olaraq bütün qadınlarımızı qarşıdakı bayram münasibətilə ürəkdən təbrik edirəm.

Ağdam rayonu Abdal-Gülablı kəndinin sakini Kamilə Talıbova hərbçi ailəsidir, həyat yoldaşı ölkəmizin ərazi bütövlüyü uğrunda Qarabağ müharibəsinin iştirakçısı olub. Kamilə xanımın sözlərinə görə, hərbi hissədə işə düzəlməsinin səbəbkarı da ömür-gün yoldaşıdır. "Pal-paltar yumağı, ütüləməyi, yemək bişirməyi qadınlar yaxşı bacarırlar. Orduda gedən islahatlardan sonra mən də hərbi hissəyə işə qəbul olundum. Öz işimdən zövq alıram, rəfiqəmin qeyd etdiyi kimi, Vətənimizi qoruyan oğulların xidmətində dayanmaq böyük şərəfdir."

Kamilə xanımdan da bayram arzularını öyrənmək istəyəndə dərindən köks ötürdü. "Doğulduğum ocaq bu gün düşmən əlindədir. Kəndimizə dönəcəyim gün taleyimdə ən əlamətdar gün olacaq."

- 8 Mart - Beynəlxalq Qadınlar Günündə öncə şəhidlərimizin, qəhrəman döyüşçülərimizin, övladları cəbhə xəttində düşmənlə mübarizədə fədakarlıq göstərən oğulların analarını təbrik etmək istərdim, - Tatyana İsmayılova deyir. - Bizə verilən tapşırıqların öhdəsindən daim bacarıqla gəlirik. Biləndə ki, əsgərlərimiz üçün xidmət edirik, sevinirik, daha da həvəslə çalışırıq. Hər bir əsgəri özümə övlad bilirəm.

Qadınlar ömrümüzün bəzəyidir, şərəf, ləyaqət, zəriflik rəmzidir. Söhbətləşdiyim hər bir qadın müsahibimin timsalında bütün ana-bacılarımızı ürəkdən təbrik edirəm. Bayramınız mübarək!

**(Ardı 5-ci səhifədə)**

# Bayramınız mübarək, əziz qadınlarımız!

(Əvvəli 4-cü səhifədə)

Əsgər yeməkxanasında çalışan qadınların bir neçəsi ilə görüşüb ürək sözlərini dinləyirik.

Aşpaz Kifayət Hüseynova:

- Bu bayram mənim üçün ən gözəl bayramlardan biridir. 8 Mart ən yüksək qiymətə, hörmətə və məhəbbətə layiq analarımızın bayramıdır. Ana həmişə müqəddəs olub, namus, qeyrət rəmzi, paklıq təcəssümü sayılıb. Hər zaman ailənin təməl daşı olan analar gələcəyimizin qurucularını böyüdüb tərbiyə edirlər. Bu səbəbdən cəmiyyətimizin inkişafında anaların rolu böyükdür.



Bu gün mən təkcə 3 övlad anası deyiləm, həm də Vətənin keşiyində dayanan bu qədər oğulun anasıyam. Bayram günü qızımı, gəlinlərimi, iş yoldaşlarımı təbrik etmək adətimdir. Məni təbrik edən isə çox olur. Vətən keşiyində dayanan oğullarımızın təbrikləri isə məni daha çox sevindirir. Sevinirəm ki, onların məhəbbətini qazana bilmişəm. Həyat yoldaşımın, uşaqlarımın və bu qədər oğlumun mənə hər yemək yeyəndən sonra "Əliniz var olsun, dadlı idi" deməsi ən dəyərli qiymət və hədiyyədir. Bu əziz gündə bir arzum var: "Torpaqlarımız işğaldan azad olunsun. Xalqımız xoşbəxt və firavan yaşasın".



Qabyuyan Cəmilə Quliyeva:

- Beynəlxalq Qadınlar bayramı özü ilə xoş əhval-ruhiyyə gətirir. Bu bayramın təsis olunmasını zərif cinsə diqqətin təzahürü sayıram. Özümü xoşbəxt sanıram ki, qadınlara yüksək diqqət göstərildiyi, analıq missiyasını şərəflə yerinə yetirmək üçün hər cür şəraitin yaradıldığı ölkədə yaşayıram. Həm də ona görə xoşbəxtəm ki, əsgərlərimizin qulluğunda dayanmaq mənə də nəsib olub. Deməli, biz də Vətənimizə qulluq edirik. Bu bayram günündə bütün anaları, bacıları, gəlinləri, qızları səmimi qəlbdən təbrik edirəm.

Qabyuyan Raisə Qarayeva:

- Bu gün Azərbaycan torpaqlarının işğaldan azad olunması yolunda sinəsini Vətənə sipər edəcək oğulların - Mübarizlərin, Çingizlərin... davamçılarının yetişməsində məğrur Azərbaycan qadınının əməyi danılmazdır. Xalqımızın rahat nəfəs alması üçün əsgərlərimiz səngərlərdə keşik çəkir, rahatlığımız üçün narahat olurlar. Gecə-gündüz demədən Vətənə xidmət edirlər. Demək, həyatdakı rahatlığımız üçün əsgərlərə, o cümlədən bütün hərbi qulluqçulara minnətdarıq. Ancaq onu da qeyd edim ki, soyuq səngərləri ana nəfəsi, qadın məhəbbəti isidir. Mənfur düşmənə tuşlanan hər silahın tətiyinə igid əsgər barmağı ilə bərabər, qətiyyətli bir ana barmağı da toxunur. Çünki bu torpağı qorumağın arxasında ana və Vətən amilləri dayanır. Bu əziz gündə xalqıma, dövlətimə sülh və əmin-amanlıq arzulayıram. Onların göz yaşları hər zaman sevinc göz yaşlarından ibarət olsun.

* * *

Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində ezamiyyətdə olarkən səliqəli, gözəl qadın hərbi qulluqçuları görmək xoş duyğular yaratdı. Onlarla söhbətləşib qəzetimiz üçün qeydlər götürdüm.

Çavuş Aliyə Bəhlulova Füzuli rayonunun Pirəhmədli kəndindəndir. Hərbi hissənin taborlarından birində operator vəzifəsində xidmət edir.

- Qarabağ müharibəsini mən uşaq yaşlarımda görmüşəm, - Aliyə xanım deyir. - Yadımdadır ki, birinci sinfə gedirdim. Müharibə getdikcə kəndimizə yaxınlaşırdı. Artıq mərmilər kəndimizə düşürdü. Ancaq nədənsə heç vaxt qorxmurdum, bəlkə də, o vaxtdan məndə hərbi xidmətə maraq vardı. 1992-ci ilin noyabrında kəndimizi tərk etməyə məcbur olduq.

O zaman Aliyəgil Daşburun qəsəbəsində məskunlaşıblar. Sonradan dövlətimizin həyata keçirdiyi tədbirlər nəticəsində azad edilmiş kəndlərinə qayıtdılar. Aliyə xanım orta məktəbi doğma rayonda bitirdi. Ailə qurdu. Hazırda üç övlad anasıdır.

2014-cü ildə qadın hərbi qulluqçuların hərbi xidmətə götürüldüyünü eşidən A.Bəhlulova hərbi hissəyə müraciət edir və onu operator vəzifəsinə götürürlər. Hazırda taborun qərargahında kargüzarlıq işlərini yerinə yetirir.

- Hərbi kollektivdə işləmək, əslində, çətin deyil, - qadın hərbi qulluqçu deyir. - Zabit, gizir və əsgərlərin bizə münasibəti çox yaxşıdır, həmişə qadınlara hörmətlə yanaşırlar. Azərbaycan Silahlı Qüvvələrində xidmət etməyimdən qürur hissi keçirirəm.

Çavuş Bəhlulova digər şəhər və kəndlərimiz kimi, doğulub uşaqlıq illərini yaşadığı doğma Pirəhmədli kəndinin yaxın zamanlarda azad edilməsini çox arzulayır.



Kiçik çavuş Pərvanə Zeynalova Bakıda dünyaya gəlsədə, son illərdə anası ilə birgə Füzuli rayonunda yaşayır. Cəbhə bölgəsinə yaxın olsa da, Azərbaycan rəhbərliyinə və ordusuna güvənirlər. Hətta ötən il aprel döyüşləri zamanı bütün füzulililər kimi evəşiklərini tərk etmək fikrinə belə düşməmişdilər. Əksinə, ordumuza kömək etmək üçün yaxınlıqdakı hərbi hissəyə çoxsaylı müraciətlər olmuşdu.

- Mən ixtisasca farmaseftəm, - kiçik çavuş gülümsünür. - Əvvəllər aptekdə işləmişəm.



Həmişə hərbçilərə rəğbətlə baxmışam, çünki onlar Vətəni qoruyurlar. Qadınların hərbi xidmətə götürülməsinə icazə verildiyi vaxtlar idi. Tanışlarımdan biri dedi ki, bu hərbi hissədə operator ştatı boşdur. Məmnuniyyətlə həmin işə düzəlmək qərarına gəldim. Sağ olsun hərbi hissə komandanlığı, kompüterlə işləməyi yaxşı bacardığıma görə məni həmin vəzifəyə götürdülər.

Öncə Pərvanə ön xətt taborlarından birində xidmətə başladı. Hazırda maddi-texniki təminat bölməsində operator vəzifəsində çalışır. Komandirləri kiçik çavuşun xidmətindən razıdırlar, onun məsuliyyətli, səliqəli, işgüzar hərbi qulluqçu olduğunu bildirirlər.



Əsgər Aytən Hacıyeva da Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndindəndir. Ailələri müharibə vaxtı Sabirabad rayonuna köçmüşdü. Hazırda Füzuli rayonunda Qayıdış qəsəbələrindən birində yaşayır.

- Mən də özümü dərk edəndən düşmənə nifrət edirəm və hərbçi olmaq istəmişəm, - deyən Aytən xanımın bildirdiyinə görə bir ildən artıqdır hərbi hissədə xidmətə qəbul edilib və hazırda radiotelefonçu vəzifəsində çalışır. Bölmələrdən aldığı məlumatları komandanlığa çatdırır. Gün ərzində tez-tez postlarla əlaqə saxlamaq lazım gəlir və əsgər Hacıyeva həmişə öz işinə məsuliyyətlə yanaşır, təcili xəbərləri dərhal müşahidə dəftərində qeyd edib komandanlığa məruzə edir.

- Hərbi hissədə xidmət çətin deyil, - qadın hərbi qulluqçu deyir. - Əsas odur ki, öz işini sevəsən və məsuliyyətlə ona yanaşasan. Hərbi xidmət həm də intizamlı olmağı tələb edir. Mən də öz işimə həmişə intizamla, məsuliyyətlə yanaşıram.

Bu xoş gündə hər kəs çalışır ki, sevimli anasına, qadınına, qızına və əlbəttə, sevgilisinə yaddaqalan hədiyyə etsin. Beləcə zərif cinsin nümayəndələrinə sevinc bəxş etməkdən gözəl nə ola bilər?!

* * *

C.Naxçıvanski adına Hərbi Liseydə çalışan qadınların da sayı kifayət qədərdir. 8 Mart - Beynəlxalq Qadınlar Günü ərəfəsində onlardan bir neçəsi ilə görüşüb söhbət etdim.

İlk həmsöhbətim kursantlara "İnsan və cəmiyyət" fənnini tədris edən Ayşən Baxışovadır. Öyrəndim ki, 2003-cü ildən Hərbi Liseydə dərs deyir. Söhbət zamanı Ayşən xanımdan "Qadın üçün hərbi kollektivdə işləmək çətin deyil ki?" - deyə soruşdum.

- Hərbi məktəbdə dərs deməyin elə bir çətinliyi yoxdu, sadəcə olaraq məsuliyyəti artıqdır, - deyə Ayşən xanım bildirdi. - Kursantlarımız doğmalarından daha çox müəllim və komandir heyəti ilə ünsiyyətdə olur. Hər dəfə sinfə daxil olanda böyük məsuliyyət hiss edirəm. Vətən üçün gələcək zabitlərin hazırlanmasında əməyim olduğuna görə qürur duyuram. Arzu edirəm ki, yaxın vaxtlarda dərsimə ordumuzun qələbə xəbəri ilə başlayım.

Zenfira İsmayılova 20 ildən çoxdur Hərbi liseydə kitabxana müdiri işləyir. Bu illər ərzində kitabxanada yüzlərlə, minlərlə kursanta mədəni xidmət göstərilib.



- Bütün diqqətimizi kitabxanaya müraciət edən oxuculara mədəni xidmət etmək işinə yönəltmişik, - deyir. - Kursantlara öz övladlarımız kimi baxırıq. Onların gözlərində parlayan ümidlər bizi işimizə daha da həvəsləndirir. Bu günün kursantı sabahımızın zabitidir. Kitabxanamızın fondu çox zəngindir. Yaxın günlərdə yeni kitabların alınması da gözlənilir. Təkcə kitablar deyil, ölkədə çıxan qəzet-jurnalları da alırıq. Kursantlar biliklərini daha da zənginləşdirmək üçün asudə vaxtlarında kitabxanaya gəlirlər. Hərbi forma mənim üçün çox doğmadır. Çünki övladlarımın ikisi də - İlham və Vüsal hərbçidir. Onlar Silahlı Qüvvələrimizin sıralarında xidmət edirlər.

Mətanət Həsənova isə biologiya müəllimidir. 2005-ci ildən Hərbi liseydə çalışır. Tədrisdə fərqləndiyinə görə, dəfələrlə fəxri fərmanlara layiq görülüb.

- Hərbi liseydə çalışmağımdan qürur duyuram, peşəmi ürəkdən sevirəm, - deyə Mətanət xanım sözə başladı. - Mən orduya ürəkdən bağlı adamam. Həyat yoldaşım Hüseynqulu Həsənli zabitdir. Qarabağ müharibəsində iştirak edib. Orduya olan böyük maraq məni Hərbi liseyə gətirib çıxardı. Müsabiqədə yüksək bal topladım. Artıq 12 ildir kursantlara bu fənni tədris edirəm. Məqsədim gələcək zabitlərimizin daha bilikli və hazırlıqlı olmasıdır. İnanıram ki, bu həvəslə oxuyan kursantlar sabahın peşəkar zabiti olacaqlar. Öz fənnimi qızlarıma da sevdirmişəm. Onlar da biologiya müəllimləridir. Oğlum Hüseyn Həsənli isə əsgərdir. Hazırda cəbhə bölgəsində xidmət edir. Dərs dediyim kursantlara baxanda oğlumu düşünürəm.



**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

Ordu quruculuğu

# "Həmişə ordumuzun yanında olacağıq"

*Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin yaradılmasından 50 il keçir. Komitənin sədri Abiyat Ağadadaşova artıq 25 ilə yaxındır ki, ordu həmkarlarında uğurlu fəaliyyət göstərir. Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin sosial-ictimai həyatında göstərdiyi xidmətlərə görə Abiyat xanımı "Tərəqqi" medalı ilə təltif edib. Eyni zamanda Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası BHİK-in sədrini "Həmkarlar ittifaqlarında xidmətlərinə görə" medalına layiq görüb. Yubiley ərəfəsində komitənin sədri Abiyat Ağadadaşova ilə görüşüb müsahibə aldıq.*



***- Abiyat xanım, Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin yarım əsrlik yubileyini qeyd etməyə hazırlaşırsınız. Sizin fəaliyyətinizin böyük bir hissəsi bu təşkilatda keçib. Ötən dövrə nəzər salanda nə düşünürsünüz?***

- Birləşmiş Həmkarlar İttifaqı Komitəsi 1966-cı ildə Sovet Ordusu Bakı Hava Hücumundan Müdafiə Dairəsinin bazasında yaradılıb. O vaxtdan artıq, qeyd etdiyiniz kimi, 50 il keçir. Maraqlıdır ki, bu yarım əsrin 25 ili Sovet dövrünə, qalan 25 ili isə müstəqillik illərinə düşür.

Ancaq ötən dövrə nəzər saldıqda görürük ki, həmin illərdə çox hadisələr baş verib və onlar Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin fəaliyyətindən yan keçməyib.

***- Bu dövrdə ən önəmli hadisə Azərbaycanın tarixi müstəqilliyinə qovuşması idi...***

- Əlbəttə. Azərbaycanın müstəqillik qazanması öz taleyinə hakim olması demək idi. Bu hadisə hər bir azərbaycanlının həyatında ən sevincli, qürurverici bir məqam idi.

Ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışı neqativ proseslərin qarşısını aldı və ölkəmiz inkişaf mərhələsinə qədəm qoydu. Cənab Prezidentimiz İlham Əliyev Ulu Öndərin işini müvəffəqiyyətlə davam etdirir. Onun prioritet hesab etdiyi ordu quruculuğu sahəsində qısa zaman kəsiyində köklü islahatlar aparıldı, böyük inkişaf baş verdi və bu gün ordumuz Cənubi Qafqazın ən güclü ordusuna çevrilib. Ötən il apreldə baş vermiş döyüşlərdə ordumuzun uğuru bunun bariz nümunəsidir.

***- Bəs bu illər ərzində baş verən dəyişikliklər Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin fəaliyyətində necə iz buraxdı?***

- SSRİ dağılandan sonra bizim komitədə də parçalanmalar oldu. Azərbaycandan kənardakı Sovet qoşunlarına məxsus hərbi hissə və müəssisələrdə fəaliyyət göstərən, ancaq bizim komitəyə daxil olan həmkarlar təşkilatları ayrıldılar. Eyni zamanda ordumuzda yeni-yeni hərbi hissələr yaradıldı. Həmin hissələrdə həmkarlar təşkilatları fəaliyyətə başladı və Birləşmiş Həmkarlar İttifaqı Komitəsinə daxil oldular. Beləliklə, sıraları Sovetlər Birliyi süqut etdikdən sonra seyrəlmiş komitə yeni şəraitdə üzvlərinin sayını artırmağa başladı.

***- Siz özünüz uzun müddət bu sistemdə çalışmısınız, 10 ildən artıqdır ki, komitəyə rəhbərlik edirsiniz. Hansı hadisələr bu illərdə daha çox yadınızda qalıb?***

- İnsan öz işini sevə-sevə, həvəslə görəndə onun nəticəsi də ürəkaçan olur. Mənə etimad göstərib Birləşmiş Həmkarlar İttifaqı Komitəsinə sədr seçiblərsə, bu etimadı doğrultmalıyam.

Həmin vaxtda təşkilatın binasında işləmək üçün lazımi şərait yox idi. BHİK-in üzvlərinin sayı da indiki ilə müqayisədə çox az idi. İlk növbədə BHİK-in özündən başladıq və burada aparatın fəaliyyəti üçün lazımi şərait yaratdıq.

Bununla bərabər maraqlanarkən gördüm ki, Müdafiə Nazirliyinin hərbi hissə və müəssisələrinin heç də hamısında ilk həmkarlar təşkilatları yoxdur. Silahlı Qüvvələrimiz təzə yarandığından yeni-yeni struktur vahidləri formalaşdırılmışdı. Biz də bir Birləşmiş Həmkarlar İttifaqı Komitəsi olaraq Silahlı Qüvvələrdə çalışan mülki işçilərin hamısını həmkarlar fəaliyyətinə cəlb etmək üçün işə başladıq. Ona görə Müdafiə Nazirliyi rəhbərliyinə müraciət etdik, onların köməyi ilə sıralarımızı genişləndirdik. Beləliklə, təşkilatlarımızın sayı çoxaldı, üzvlərimizin sayı artdı. Eyni zamanda həmin təşkilatların fəaliyyətini lazımi məcraya yönəltdik. Çünki elə təşkilatlar var idi ki, özü olsa da, fəaliyyəti hiss edilmirdi.

Bundan əlavə, həmkarların üzvlərindən hərbi hissələrdə üzvlük haqları tutulsa da, həmkarların hesabına köçürülmədə problemlərlə qarşılaşırdıq. Bu məsələni də qaydasına qoymaq üçün çalışmaq lazım gəldi.

2006-cı ilin dekabrında komitənin 40 illiyini təntənə ilə qeyd etdik.

Görülən işlər həm komandanlıq, həm də üzvlər arasında BHİK-in hörmət və nüfuzunu artırmağa başladı. Üzvlərimizin sayını 15 minə çatdırmışdıq. Sonradan Müdafiə Nazirliyinin tabeliyində olan Azərbaycan Respublikasının Hərbi Komissarlığı 2012-ci ildə ləğv olundu, onun əsasında müstəqil Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti yaradıldı və orada həmkarlar təşkilatı fəaliyyətini dayandırdı. Başqa ixtisarlar da oldu və üzvlərimizin sayı 9 minə endi. Buna baxmayaraq, biz öz işimizi görməkdə davam etmişik, axtarışlar aparmışıq, yeni həmkarlar ittifaqı təşkilatları yaratmışıq.

Məsələn, cəbhə bölgəsində hərbi hissələrdə ilk həmkarlar təşkilatları fəaliyyət göstərirdi, ancaq ön xətt hərbi hissələrində yaradılmamışdı. Biz bu sahədəki boşluqları da doldurmağa çalışmışıq. İndi birliklərdə çalışan və ordu həmkarlarının üzvü olan mülki işçilər də bizim tərkibimizdədir, onların əmək hüquqları və maraqları da tərəfimizdən qorunur.

Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin yubileyi ərəfəsində də bira bir ilk həmkarlar ittifaqı təşkilatını yaratmışıq və artıq fəaliyyətə başlayıb. Hazırda üzvlərimizin sayı yenə 15 min nəfərə yaxınlaşır. Bu proses bundan sonra da davam edəcək.

***- Birləşmiş Həmkarlar İttifaqı Komitəsi ordu sistemində çalışan fəhlə və qulluqçuların əmək hüquqlarının keşiyində dayanır. Bu baxımdan təşkilatın fəaliyyətini necə dəyərləndirirsiniz?***

- Ordu həmkarlarının, doğrudan da, başlıca vəzifəsi Silahlı Qüvvələrdə çalışan, bu təşkilatın üzvü olan fəhlə və qulluqçuların sosial-iqtisadi hüquqlarını və qanuni mənafelərinin müdafiəsini həyata keçirməkdir. Ötən illər ərzində bu məsələ daim diqqətimizdə olub və üzvlərimizin hüquqlarını qanuni üsullarla qorumağa çalışmışıq.

Tabeliyində olduğumuz Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin fəaliyyətimizə verdiyi dəstəyi xüsusilə qeyd etmək istərdim. Hansısa məsələ ilə bağlı Respublika Komitəsinin sədri Hikmət Osmanova müraciət edəndə həmişə bizim təşəbbüsümüzü dəstəkləyib. Ümumiyyətlə, həm Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası, həm də Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin köməyini daim hiss etmişik və edirik. Bir çox tədbirləri bizim büdcəmiz imkan vermədiyinə görə Respublika Komitəsinin vəsaiti hesabına həyata keçirmişik. Bu, doğrusu, bizi həmişə həvəslə işləməyə ruhlandırıb və öz vəzifəmizə daha ürəklə, məsuliyyətlə yanaşmağımıza sövq edib.

Mən Müdafiə Nazirliyinin rəhbərliyinə öz minnətdarlığımı bildirirəm ki, həmkarların hərbi hissə və müəssisələrdə çalışan üzvlərinin hüquq və maraqlarının müdafiəsilə bağlı həmişə bizə öz köməyini göstərir.

Müstəqilliyin ilk illərində əməyin mühafizəsi, normal iş şəraitinin yaradılması, əmək haqlarının vaxtında verilməsilə bağlı problemlər mövcud idi. Dövlətin qayğısı ilə Silahlı Qüvvələrimizdə yeni hərbi hissələrimizin inşası və əsaslı bərpasından sonra bu sahədə böyük dəyişikliklər baş verib, fəhlə və qulluqçuların fəaliyyəti üçün də hər cür şərait yaradılıb.

Birləşmiş Həmkarlar İttifaqı Komitəsi orduda çalışan mülki işçilərin istirahət və asudə vaxtının mənalı təşkilini də həyata keçirir, daim qayğısına qalır.

Əgər həmkar deyiriksə, üzvlərimiz həmfikir, həmrəy olmalı, fəaliyyətini bir məqsədə yönəltməlidirlər, kollektivin maraqlarını, Silahlı Qüvvələrimizin mənafeyini daim uca tutmalıdırlar. Onların bu ovqatla işləməsi və yaşaması həm də bizdən asılıdır.

Mən həmişə gördüyümüz işləri təhlil edərkən xeyirxah əməllərimizə görə daxili bir rahatlıq tapıram. İşçinin bir problemini həll etmək, qayğısına qalmaq həmişə insana fərəh bəxş edir. Ehtiyacı olana yardım etmək, mənəvi dəstək olmaq həmkarların əsas vəzifələrindən biridir.

Bundan başqa ittifaq üzvlərinin iştirakı ilə kütləvi idman tədbirləri keçirmək də işçilərdə kollektivçilik ruhunu möhkəmləndirir. İdman həm sağlamlıq, həm də xoş əhval-ruhiyyə deməkdir. Ona görə il ərzində mütəmadi olaraq müxtəlif idman növləri üzrə tədbirlər təşkil edir, qalibləri, iştirakçıları mükafatlandırırıq. Hərbi hissə və müəssisələrdə həmkarların üzvləri bunu həvəslə qarşılayırlar.

***- BHİK-i həmişə ordumuzun yanında görmüşük. Siz tez-tez cəbhə bölgələrinə gedir, hərbi hissələrimizin zabit və əsgərlərilə görüşürsünüz. Bu nədən irəli gəlir?***

- Biz özümüzü ordumuzdan kənarda təsəvvür etmirik, təkcə ona görə yox ki, ordu həmkarlarını təmsil edirik. Həm də ona görə ki, hər birimiz vətəndaş olaraq Azərbaycanın tərəqqisi naminə əlindən gələni etməlidir, dövlətçiliyimizin keşiyində dayanan Silahlı Qüvvələrimizin uğuru, qələbəsi naminə bacarıq və imkanını əsirgəməməlidir.

Azərbaycan Prezidenti İlham Əliyev daim ordu quruculuğunu nəzarətində saxlayır. Bu illərdə hərbi hissələrimiz ən müasir silah və texnika ilə təmin olunublar. Hərbi hissələrdə sosial-məişət problemləri ən yüksək səviyyədə həllini tapıb. Hərbi hissə və müəssisələrdə çalışan mülki işçilərin də əmək şəraiti xeyli yüksəlib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov qoşunlarımızın döyüş qabiliyyətinin yüksəldilməsi üçün hər il kompleks tədbirlər həyata keçirir.

Bir sözlə, ordumuz bu gün hərtərəfli təminat və təchizata malikdir. Bununla belə biz, köməyimizə ehtiyacları olmasa da, Azərbaycan zabitinə, əsgərinə həmişə dayaq olmağa, onlara mənəvi dəstək verməyə çalışırıq. Cəmiyyəti yanında gördükdə ordumuz daha ürəkli və güclü olur. Biz bunu heç vaxt unutmuruq. Hərbi hissələrimizdə tez-tez oluruq, Haramıda, Murovda xidmət edən, Vətənimizi qoruyan Azərbaycan əsgərinə baş çəkəndə, ona mənəvi dəstək olanda bir vətəndaş olaraq özümüzün də dəyərini hiss edirik.

Aprel döyüşləri baş verdikdən sonra, ordumuzun bizim yardımımıza ehtiyacı olmasa belə, onlarla görüşə getməyi, mənəvi dəstək olmağı, sovqat aparmağı özümüzə borc bilmişdik. Biz Birləşmiş Həmkarlar İttifaqı Komitəsi kimi həmişə ordumuzun yanında olacağıq.

***- Müsahibəyə görə çox sağ olun.***

**Müsahibəni apardı:**
**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

**Redaksiyadan:**

*Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin əməkdaşlarını yubiley, Komitənin sədri Abiyat xanımı həm yubiley, həm də 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edirik.*

*Ordu və cəmiyyət*

# Tutduğumuz yol ədalətlidir

*Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri hörmətli akademik İsa Həbibbəyli vurğulayır ki, "Aprel döyüşləri Azərbaycanın öz ərazi bütövlüyünü qorumaq uğrundakı apardığı mübarizədə ən parlaq qələbələrdən biridir. Bu, Azərbaycanın qalib bir ordu olduğunu və öz haqlarını istənilən yolla müdafiə etmək qüdrətini bütün dünyaya bəyan elədi. Bu hər bir azərbaycanlının qürur duyduğu hadisədir".*



Bu hadisənin tarixi mahiyyəti və əhəmiyyəti orta məktəblərdə şagirdlərimizə ətraflı öyrədilir. Bu, şagirdlərdə vətənpərvərlik hissini artırır, dövlətimizə, dövlətçilik ənənələrimizə rəğbəti gücləndirir. 1991-ci ildə başlanan və dörd il davam edən birinci Qarabağ müharibəsi 1994-cü ildə atəşkəslə başa çatdı. Atəşkəsdən keçən 22 il ərzində beynəlxalq təşkilatlar müxtəlif qərar və qətnamələr qəbul etdi. Lakin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ də həll edilməyib. Buna səbəb münaqişənin səbəbkarı olan Ermənistanın sülh danışıqlarını həlledici məqamlarda birtərəfli qaydada pozmasıdır. Ötən müddət ərzində Ermənistan hərbi qüvvələri işğal altında saxladıqları ərazilərdən torpaqlarımıza müxtəlif təyinatlı silahlardan atəş açmaqdadır.

2016-cı il aprelin 1-dən 2-nə keçən gecədə cəbhəboyu mövqelərimiz Ermənistan silahlı qüvvələri tərəfindən iriçaplı silahlardan, minaatanlardan, qumbaraatanlardan və artilleriya qurğularından intensiv atəşə tutuldu. Qoşunların təmas xəttində hər gün atışmalar müşahidə olunsa da, ilk dəfə idi ki, ən irihəcmli hücum baş verirdi.

Azərbaycan Silahlı Qüvvələri tərəfindən həyata keçirilən sürətli əks-həmlə zamanı erməni hərbi birləşmələrinin uzun illərdən bəri mühəndis-istehkam baxımından möhkəmləndirdiyi birinci müdafiə xətti yarıldı. Mühüm əhəmiyyətə malik bir neçə yüksəklik və yaşayış məntəqələri azad olundu. Ordumuz Lələtəpə yüksəkliyinə nəzarəti ələ keçirdi, Tərtər istiqamətində də bir neçə yüksəklik düşməndən azad edildi.

Döyüş zamanı Azərbaycan Silahlı Qüvvələrinin dəqiq zərbəsi ilə işğal olunmuş ərazilərimizdə fəaliyyət göstərən Ermənistan ordusuna məxsus komanda-qərargah məntəqəsi darmadağın edildi. Azərbaycan Ordusunun yüksək texniki hazırlığı nümayiş olundu. Çoxlu sayda hərbi qulluqçusunu, yüksək rütbəli zabitlərini itirən Ermənistan hökuməti danışıqlar masası arxasında oturmağın vacib olduğunu başa düşdü. Aprelin 5-də Rusiya Federasiyasının vasitəçiliyi ilə Moskvada görüş keçirildi. Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində hərbi əməliyyatların dayandırılmasına dair razılıq əldə edildi.

Bütün beynəlxalq təşkilatların rəhbərlərinin, həmçinin, bir sıra dövlət və hökumət başçılarının atəşin dərhal dayandırılması və danışıqlar masasına oturmaq barədə bəyanat verməsi məsələnin çox ciddi xarakter alması ilə bağlı idi.

Azərbaycan Ordusunun qəti əks-həmləsi, sözün əsl mənasında, bir çox dövlətlərə öz xarici siyasətlərinə yenidən baxmaq zərurəti yaratdı. Ermənistanın daxil olduğu qurumların özləri də Avropa Şurası, Avropa Şurası Parlament Assambleyası, Müstəqil Dövlətlər Birliyi, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və s. rəsmi İrəvanı dəstəkləmədi. Bir sıra dövlət başçılarının bəyanatında Ermənistan qınaq obyektinə çevrildi. Aprel döyüşləri ilə Azərbaycan Ordusu düşmənə öz gücünü göstərdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Ermənistanın inkişaf etmək üçün heç bir imkanı yoxdur… Bizdə olan məlumatlara görə, onlar hətta təmas xəttini qorunmaqda çətinlik çəkir. Çünki canlı qüvvə yoxdur" fikirləri bu qınağın reallığını təsdiqlədi.

Prezident İlham Əliyev Bərdə ictimaiyyətinin nümayəndələri ilə görüşündə Azərbaycan və Ermənistanın inkişaf səviyyəsinin müqayisəedilməzliyini və münaqişənin həllinə həssaslıqla yanaşılmasının vacib olduğunu diqqətə çatdırdı: "Mən, əlbəttə, istəyirəm ki, biz bunu qan tökülmədən edək. Ancaq biz istənilən varianta hazır olmalıyıq və hazırıq. Bu gün güclü iqtisadiyyatımız, güclü ordumuz var. Ordu potensialı da, insan potensialı da, vətənpərvərlik hissləri də çox güclüdür".

Dövlətimizin müstəqilliyini, xalqımızın əmin-amanlığını qorumağa, ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə qadir olan Silahlı Qüvvələrimizə arxalanan Prezident İlham Əliyevin "Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir" bəyanatı xalqımıza böyük qürur verdi. Öz siyasi fəaliyyətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllini prioritet sayan dövlətimizin başçısı bu fəaliyyətin etibarlılığının təmin olunduğunu bir daha təsdiq etdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bir məsələni xüsusi olaraq bəyan edir ki, Azərbaycan heç vaxt torpağında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. "Azərbaycan bütün imkanlarını səfərbər edib, diplomatik, siyasi, iqtisadi, hərbi - bütün imkanlardan istifadə edib öz doğma torpaqlarını azad edəcəkdir".

**Qasım HACIYEV,**
**AMEA-nın Tarix İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru**

# Kursantlar yüksək hazırlıq nümayiş etdirdilər



*Təhsil prosesini təkmilləşdirmək, kursantlarda təşkilatçılıq bacarığını artırmaq məqsədilə müntəzəm olaraq C.Naxçıvanski adına Hərbi Liseydə tədbirlər keçirilir.*

Bu günlərdə keçirilən mərasimdə 6 kursantın təqdimatına baxış nəzərdə tutulmuşdu. Bu kursantlar yarışın birinci mərhələsindən uğurla keçmişdilər. İlk mövzu "Kimya hərbdə" idi. Sujetlər bir-birini əvəz etdikcə iştirakçıların da yarışa diqqəti artırdı.

Gərgin anlar, həyəcanlı dəqiqələr arxada qaldı. Münsiflər heyəti qısa məşvərətdən sonra qalibləri elan etdi. Məlum oldu ki, "Kiçik Akademiya" layihəsində təqdim olunan mövzularda kursant Rəşad Ağarzayev daha yüksək hazırlıq nümayiş etdirərək birinci yerə çıxıb. İkinci yerə kursant Sahib Orucov, üçüncü yerə isə kursant Əli Quliyev sahib oldular.

Hərbi lisey rəisinin tədris üzrə müavini - şöbə müdiri Elman Namazov çıxış edərək qeyd etdi ki,



belə tədbirlər kursantların bilik səviyyəsinin yüksəlməsinə, dünyagörüşlərinin formalaşmasına müsbət təsir göstərir.

Təqdimat mərasimində fərqlənən kursantlar, həmçinin tədbirin hazırlanmasında əməyi olan müəllimlərdən Gülşən İsgəndərova və Seyran Cəfərov fəxri fərmanlarla mükafatlandırıldı.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

# Xəbərlər:
## hadisələr, faktlar

### İraq ordusu Mosulda daha bir strateji mövqeni azad edib



İraq ordusu strateji baxımdan əhəmiyyətə malik daha bir mövqeni azad edib.

Yerli kürd əhalinin dəstəyi ilə hökumət qüvvələri Mosulda Dəclə çayı üzərindəki ikinci körpünü azad ediblər. Şəhərin qərbində yerləşən bu körpü İraq ordusu üçün istinad nöqtəsidir. Mosulun şərq hissəsi isə bu ilin yanvarında koalisiya qüvvələrinin hava zərbələrinin köməyi ilə azad edilmişdi.

Qeyd edək ki, Mosul İŞİD-in İraqdakı son qalası hesab edilir.

### Əfqanıstanın şərqində yaraqlılar 4 polis işçisini öldürüblər



Martın 6-da Əfqanıstanın şərqində yerləşən Nanqarhar əyalətinin Açin rayonunda yaraqlıların nəzarət buraxılış məntəqəsinə hücumu nəticəsində 4 polis əməkdaşı həlak olub.

Hücumda iştirak edən 8 silahlının öldürüldüyü bildirilir. Hadisənin məsuliyyətini hələlik heç bir qruplaşma üzərinə götürməyib. Hücumun arxasında İŞİD qruplaşmasının durduğu ehtimal olunur.

### Malidə silahlılar hərbi bazaya hücum edib



Malidə silahlıların hərbi bazaya hücumu nəticəsində ən azı 10 hərbçi həlak olub.

Terrorçular Mali ordusunun Burkina-Faso ilə sərhəddəki mövqelərindən birinə hücum ediblər. Digər mənbə isə Mali ordusu komandanının itkin düşdüyünü, daha bir zabitin isə öldürüldüyünü bildirir.

### Yəməndə yaraqlıların hücumu nəticəsində 10-dan artıq əsgər həlak olub



"Əl-Qaidə" silahlılarının hücumu nəticəsində azı 11 yəmən əsgəri həlak olub.

Silahlıların Abyan əyalətinin cənubundakı posta hücumu nəticəsində 6 əsgər həyatını itirib. Daha beş hərbçi isə Hadramaut əyalətində öldürülüb.

Qeyd edək ki, Yəməndə hökumət qoşunları və qiyamçı husilər arasında silahlı münaqişə 2014-cü ildən davam edir. Ölkənin cənubunda fəaliyyət göstərən "Əl-Qaidə" terror qruplaşması müntəzəm olaraq hərbçilərə hücumlar təşkil edir.

### İraqın Baş naziri hərbi əməliyyatların davam etdiyi Mosula gəlib



İraqın baş naziri Heydər əl-Abadi Mosulun İŞİD tərəfindən ələ keçirilməsindən sonra ilk dəfə bu şəhərə gəlib.

İraq hökumətinin başçısı və respublikanın Silahlı Qüvvələrinin baş komandanının səfərindən məqsəd əməliyyatların gedişi ilə tanış olmaq və kampaniyaya cəlb edilən hərbi hissələrə baxış keçirməkdir.

Bir qədər əvvəl hökumət qüvvələri qərbi Mosulun mərkəzi məhəllələrində hökumət binaları kompleksi üzərində nəzarətə tam yiyələndiklərini elan edib. İŞİD rəhbərliyi tərəfindən isə yaraqlılara Mosulu təcili tərk edərək qruplaşmasının Suriyadakı forpostu - Rakka şəhərinə çəkilmələri barədə göstəriş aldıqları bildirilir.

**AZƏRTAC-ın materialları əsasında**

Asudə vaxt

# “Xidmət edirik, oxuyuruq, öyrənirik”

*Xalqın, dövlətin gələcəyi onun vətəndaşının öz ölkəsinə olan övlad borcunu layiqlincə yerinə yetirməsindən asılıdır. Damarlarında azərbaycanlı qanı daşıyıb, bütün varlığıyla azərbaycanlıyam deyən hər bir kəs Vətənimizin gələcəyi üçün əlindən gələni əsirgəməməli, dövlətə olan sevgi və sədaqətilə vətənpərvər olmalıdır.*



"N" hərbi hissəsində olarkən şəxsi heyətin asudə vaxtını necə keçirmələri ilə maraqlandım. Şəxsi heyətlə iş üzrə şöbənin zabiti Ruslan Əbilov əsgərlərin asudə vaxtının maraqlı və səmərəli təşkili ilə daha yaxından tanış olmağımıza kömək göstərdi.

Hərbi hissənin ərazisində və otaqlardakı təşviqat lövhələrində ümummilli liderimiz Heydər Əliyevin gələcəyimiz və ordu quruculuğu ilə bağlı müdrik kəlamları, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin və ordu rəhbərliyinin əsgərlərin yanında, səngərdə olmalarını əks etdirən şəkillər göz oxşayırdı.

Əsgər Rəvan İmanov "Azərbaycan Ordusu" qəzetini mütaliə edirdi. Əsgər Mirabbas Həsənli isə "Hərbi bilik" jurnalını vərəqləyirdi. Doğma qəzetimizin ardıcıl saylarının masa üzərində olması da nəzərimdən yayınmır.

Əsgərlər Elvin Şükürlü və Elmar Əlizadə şahmat oynayırdılar. Oyunda qalib olan Elmarla söhbətləşərkən bildirdi ki, Astara rayonunda anadan olub. Orta məktəbdə də şahmat yarışlarında daim birinci yerə layiq görülüb.

Daha sonra əsgərlər Alıkişi Tağıyev, Hidiş Axundov, Ruslan Həkimov, Rəvan İmanov, Elmar Əlizadə, Fəqan Əmənov və başqaları da söhbətimizdə bildirdilər ki, asudə vaxtlarında dama, şahmat oynayır, maraqlı televiziya verilişlərinə baxır, Milli Qəhrəmanlarımız və şəhidlərimiz haqqında sənədli filimlərə tamaşa etməyi çox sevirlər.

Bütün bunlar bizə deməyə əsas verir ki, şəxsi heyətin asudə vaxtının mənalı təşkili üçün bu hərbi bölmədə yetərincə işlər görülüb.

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu",
foto
çavuş
N.PƏNAHOVUNDUR**



Hərbi ənənələr, yeniliklər

# Tankəleyhinə RPQ-29 “Vampir” qumbaraatanı

Keçən əsrin 80-ci illərində sovet müdafiə sənayesi tərəfindən bir neçə müxtəlif xüsusiyyətli tankəleyhinə reaktiv qumbaralar hazırlanıb. Bu silahlar piyadalara düşmənin zirehli texnikalarına qarşı effektli mübarizə aparmağa imkan verirdi. Lakin buna baxmayaraq ciddi çatışmazlıqlar da var idi. Həmin vaxtlarda qoşunlarda RPQ-7 və RPQ-16 qumbaraatanından istifadə edilirdi. Getdikcə bu silahlar köhnəlirdi və onların yeniləri ilə əvəz edilməsi vacib idi. Bu məqsədlə piyadaların silahlanması ilə məşqul olan "Bazalt" müəssisəsi tərəfindən yeni "RPQ-29 "Vampir" tankəleyhinə qumbaraatan silahının hazırlanması üzrə işlərə başlanılıb. Bu işlərin aparılmasına V.S.Tokarev başçılıq edirdi. Və nəzərdə düşmənin ən müasir və perspektiv tanklarını məhv etməyə qadir olan silahın yaradılması tutulurdu.

RPQ-29 "Vampir" qumbaraatanı özündə üzərində nişangahı və atəşi idarəetmə qurğuları quraşdırılmış buraxıcı qurğunu təsvir edir. Döyüş vəziyyətində onun uzunluğu 1,85 metr təşkil edir. Qumbaraatanın rahat istifadəsi üçün silahı söküb-yığmaq olar. Səyyar vəziyyətində "Vampir" qumbaraatanı xüsusi mufta ilə birləşmiş iki bloka ayrılır. Bundan başqa silahın rahat daşınması üçün onun nişangahı da çıxarılır. Sökülmüş vəziyyətdə silahın uzunluğu 1 metrdir. Yığılmış halda qumbaraatanın ümumi çəkisi 11,5 kiloqram və onun üzərinə nişangah da quraşdırılsa, çəkisi 0,6 kiloqrama qədər artır. "Vampir"in nişangah qurğusu optik 1P38 nişangahıdır. Onunla 500 metrlik məsafəyə qədər atəş açmaq olar. Sifarişçinin xahişi ilə əlavə olaraq gecəgörmə nişangahı da quraşdırmaq olar. RPQ-29 qumbaraatanında döyüş sursatı kimi PQ-29V reaktiv qumbarasından istifadə edilir. 105 mm-lik reaktiv PQ-29V qumbaraatanı dinamik mühafizə sistemləri ilə təchiz olunmuş hədəfləri məhv etməsini nəzərə alaraq hazırlanıb. Ona görə də döyüş sursatı tandem kumulyativ döyüş hissəsini daşıyır. Verilən məlumata görə, qumbaranın döyüş hissəsi dinamik mühafizəyə malik olan 600 mm-dən artıq homogen (eyni mənşəli) zirehi deşməyə qadirdir. Qumbaranın quyruq hissəsində reaktiv mühərrik quraşdırılıb. İki nəfər heyətdən ibarətdir. İki yüklə daşınır, birində - qumbara, digərində isə qumbaraatan yerləşdirilib.



**Hazırladı:
Svetlana YUSUBOVA,
"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası adyunkturaya qəbul elan edir

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası Müdafiə nazirinin 14 oktyabr 2015-ci il tarixli qərarına müvafiq olaraq, 2017-ci il üçün fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə adyunkturaya qiyabi və dissertantlıq yolu ilə qəbul elan edir.

Qəbul "73 - Milli təhlükəsizlik və hərbi elmlər" elm sahəsinə aid aşağıdakı ixtisaslar üzrə elan olunur:

- 7301.01 - Hərbi nəzəri elmlər;
- 7302.01 - Hərbi xüsusi elmlər;
- 7303.01 - Hərbi təbabət;
- 7304.01 - Milli təhlükəsizlik.

Fəlsəfə doktoru proqramı üzrə adyunkturaya Silahlı Qüvvələrdə həqiqi hərbi xidmətdə olan, ali təhsilli (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan, tibbi təhsildə isə həkim və həkim-mütəxəssis), həmçinin pedaqoji və ya elmi-tədqiqat işində bacarığı olan zabitlər (qulluqçular) qəbul olunur. Mülki ali təhsil müəssisələrini bitirən zabitlər, bundan əlavə zabit vəzifələrində iki ildən az olmayaraq xidmət təcrübəsinə malik olmalıdır.

Elmlər doktoru proqramı üzrə adyunkturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmaq qabiliyyəti və "Fəlsəfə doktoru" (elmlər namizədi) elmi (alimlik) dərəcəsi olan zabitlər (qulluqçular) qəbul edilir.

Adyunkturaya qəbul olmaq üçün raportlar komanda üzrə 01.05.2017-ci il tarixinədək hərbi hissələrin komandirlərinə, hərbi-elmi (elmi-tədqiqat) və hərbi təşkilatların, ali təhsil müəssisələrinin rəislərinə verilir.

Raporta əlavə olunur:

- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat (fəlsəfə doktoru hazırlığı üzrə);
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış zabitlər (qulluqçular) üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);
- xidməti (iş yerindən) xasiyyətnamə;
- kadrların şəxsi-qeydiyyat vərəqi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 ölçüdə);
- şəxsiyyəti təsdiq edən sənədin surəti;
- çap olunmuş elmi əsərlərin siyahısı (elmlər doktoru hazırlığı üzrə);
- "Elmlər doktoru" elmi dərəcəsi iddiaçısı üçün fəlsəfə doktoru (elmlər namizədi) diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti (bu diplomu xarici ölkələrdə almış zabitlər (qulluqçular) üçün təkrar attestasiya (nostrifikasiya) diplomu);
- dissertasiyanın açıq planı və bu plana dissertasiyanın aid olduğu sahə üzrə iki hərbi təşkilat, yaxud müvafiq ixtisas üzrə elmlər doktoru elmi dərəcəsi olan iki mütəxəssisdən alınmış yazılı rəy (elmlər doktoru hazırlığı üzrə).

Hərbi hissə komandirləri, hərbi-elmi (elmi-tədqiqat) və hərbi təşkilatların, ali təhsil müəssisələrinin rəisləri adyunkturaya daxil olmaq istəyənlərin raportlarını ona əlavə olunan sənədlərlə birlikdə 01 iyun 2017-ci il tarixinədək Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisinə göndərməlidir.

Adyunkturaya seçim və qəbul qaydaları Azərbaycan Respublikası Müdafiə nazirinin 14 oktyabr 2015-ci il tarixli qərarına uyğun olaraq həyata keçiriləcək.

**Ünvan:** Bakı şəhəri, Şəfaət Mehdiyev küçəsi 136, “Qızıl Şərq” hərbi şəhərciyi, Silahlı Qüvvələrin Hərbi Akademiyası.
**Əlaqə telefonu:**
(012) 538-41-53; 055 571 15 56.
**E-mail:** doktorantura@box.az

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 94
Nüsxə 4650